**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**EMİN AKİF OĞLU ƏLƏKBƏROB**

# HEYKƏLTƏRAŞ FUAD SALAYEVİN YARADICILIĞI

**İxtisas: 6215.01 –** Təsviri sənət

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2016**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Ərtegin Əbdül Vahab oğlu Salamzadə**
AMEA-nın müxbir üzvü, sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Arif Möhübəli oğlu Əziz**
əməkdar incəsənət xadimi, professor

**Telman İsmayıl oğlu İbrahimov**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

Müdafiə 31 oktyabr 2016-cı il saat 11:00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1029, Bakı şəh., Heydər Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat 30 sentyabr 2016-cı ildə göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq**
**üzrə fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

Müasir Azərbaycan heykəltəraşlığında öz dəsti-xətti ilə seçilən neçə-neçə tişə ustalarının adları ilə yanaşı Fuad Salayevin də adını qeyd etmək olar.

Bu tişə ustalarının arasında tanınmış heykəltəraş Fuad Salayevin özünəməxsus yeri var. Azərbaycan Xalq rəssamı, professor, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının elm və yaradıcılıq işləri üzrə prorektoru, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü Fuad Salayevin yaradıcılığı Azərbaycan incəsənətinin ayrılmaz tərkib hissəsi olaraq müasir heykəltəraşlığımızın maraqlı və özünəməxsus səhifələrindən biridir. Əsərləri ilə yalnız vətəndə deyil, ondan çox–çox uzaqlarda tanınmış sənətkarın heykəltəraşlıq əsərləri London, Paris, Avinyon, Nis, Milan, Ankara, Tokio və başqa dünya şəhərlərində nümayiş etdirilmiş və onun müəllifinə, vətəninə şöhrət gətirmişlər.

**Tədqiqatın aktuallığı**. Tanınmış heykəltəraş Fuad Salayev geniş yaradıcılıq diapazonuna malik heykəltəraşlardan biridir. Heykəltəraşın zənginliyi ilə seçilən bədii irsini dəzgah heykəltəraşlığı, monumental heykəltəraşlıq və eləcə də memorial - xatirə nümunələri təşkil edir.

Əsərləri özünəməxsus dəst-xətti ilə seçilən heykəltəraşın ilk yaradıcılıq dövrü XX əsrin ortalarına, müharibədən sonrakı dövrə, sovet sənətkarlığının inkişafı dövrünə təsadüf etmişdir. Fuad Salayev hələ təhsilinin birinci mərhələsindən, ilk tələbəlik illərindən başlayaraq bir çox müxtəlif mövzulu kiçik formalı əsərləri ilə hər bir sənətsevərin zövqünü, könlünü oxşayırdı. O, yaradıcılığının ən erkən vaxtlarından özündə xalqımızın uzaq–yaxın tarixini, qəhrəmanlıq salnaməsini əks etdirən kompozisiyalar yaratmışdır. Erkən yaradıcılığı dövründə yaratdığı monumental abidələr Azərbaycan Respublikasının küçə və meydanlarını bəzəməyə başlamışdır. Sovet dönəminin belə bir vaxtında heykəltəraşın ölkə xaricində də ucaldılan monumental abidələri bu ölkələrin şəhərlərinin parklarını, meydanlarını zənginləşdirmişdir.

M. F. Baburin və N. V. Tomski kimi sənətkarlardan dərs alan Fuad Salayev Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin katibi vəzifəsində çalışmış və Azərbaycan Rəssamlar İttifaqının Respublika və Ümumittifaq qurultaylarının nümayəndəsi olmuşdur. Bu da heç şübhəsiz gənc tişə ustasının yaradıcı potensialı ilə yanaşı fəallığının da əsas göstəricisi idi.

Fuad Salayevə yaratdığı bir çox uğurlu heykəltəraşlıq nümunələrinə görə ölkəmizdə və xarıcı ölkələrdə yüksək dövlət mükafatları verilmişdir. O, hələ gənc yaşlarında, sovet dönəmində bir sıra mükafatlar ilə təltif olunmuşdur.Tişə ustası 1975-ci ildə "Azərbaycan Komsomolu" mükafatına, 1976-cı ildə "Zəhmətkeş qadın" və "Analıq" əsərlərinə görə SSRİ Rəssamlıq Akademiyasının diplomuna, 1988-ci ildə "Şair Xətai" heykəli bürünc medala layiq görülmüşdür. Fuad Salayev yaratdığı qiymətli əsərlərinə görə 1993-cü ildə Tokio şəhərində İtalyan pavilyonunda keçirilən XVII Ümumdünya rəssamlarının sərgisində nümayiş olunan "Son.Cənnət qapısı" adlı əsərinə görə Beynəlxalq diploma layiq görülüb. Sənətkar 1997–ci ildə "Ən yaxşı heykəltəraşlıq işlərinə gorə" Rəssamlar İttifaqının "Sultan Məhəmməd" adına mükafat almışdır. Yaradıcılıq potensialı olduqca böyük olan heykəltəraş 1992-ci ildə Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi adına, 2002-ci ildə Xalq rəssamı fəxri adına, 2009-cu ildə isə Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilmişdir.

Fuad Salayev bədii axtarışlarla seçilən səmərəli yaradıcılığı zamanında, özünəməxsusluğu ilə diqqəti cəlb edən əsərlərinə görə dövlət tərəfindən də yüksək dəyərləndirilmişdir. Maraqlı kompozisiyalar, mükəmməl plastika yaradan heykəltəraş 2014-cü ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur ki, bu da sənətkarın 70-illiyi dövrünə təsadüf edir. Bütün bunları tişə ustasının heykəltəraşlıq sənətinin inkişafına verdiyi layiqli töhfələrə görə milli və beynəlxalq səviyyədə göstərilən münasibətin qarşılıqlı ifadəsi hesab etmək olar.

Azərbaycan sənətşünaslığında bu günə qədər sənətkarlığı və şəxsiyyəti son dərəcədə yüksək olan heykəltəraşın çoxşaxəli yaradıcılığına dair indiyə qədər monoqrafik tədqiqat işi yazılmamışdır. Hazırki vəziyyətdə heykəltəraşın axtarışlarla zəngin sənət yoluna həsr olunmuş əhatəli elmi tədqiqatın aparılmasına böyük zərurət duyulur. Onun müasir Azərbaycan təsviri sənətinin təşəkkülünə verdiyi töhfələrin bədii-estetik dəyərinin müəyyən olunması, ifadəli obrazlarının araşdırılmasına ehtiyac yaşanır. Fuad Salayev sənətkarlığının tədqiqi gənc heykəltəraş nəslin formalaşmasında və bütünlükdə milli heykəltəraşlıq sənətimizin inkişafı yolunda mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, araşdırma nəticəsində meydana çıxan elmi qənaətlərə görə sənətşünaslığımız yeni elmi–nəzəri dəyərlərlə zənginləşmiş olar. Bütün bunlar isə həm Azərbaycan

heykəltəraşlığının inkişafına, həm də sənətşünaslığının dərinləşməsinə, geniş əhatəliliyinə xidmət edir.

**Problemin öyrənilmə dərəcəsi.** Xalq rəssamı Fuad Salayev haqqında bu vaxta qədər yazılmış məqalələr müxtəlif illərdə dövrü mətbuatda - qəzet və jurnallarda çap olunmuşdur. Onun müxtəlif miqyaslı sərgilərdə nümayiş etdirilən əsərləri, eləcə də şəhər mühitində yer alan monumental abidələri daima sənətşünasların və jurnalistlərin diqqətini cəlb etmiş və onlar bu əsərlər haqqında fikirlərini mətbuatda işıqlandırmışlar.

Yaratdığı əsərləri ilə diqqəti cəlb edən Fuad Salayevin yaradıcılığı haqqında hələ sovet dövründə bir sıra mütəxəssislər müxtəlif nəşrlərdə öz fikirlərini işıqlandırmışlar. Belə sənətşünaslardan Cəmilə Novruzova, Nahidə Səmədova, Ziyadxan Əliyev, Gülrəna Qacar, xalq yazıçısı Anar, Nailə Əsgərova və bir sıra başqa sənətşünasları, heykəltəraşları, dövrü mətbuat nümayəndələrini qeyd etmək olar. Bu yazıların müəllifləri heykəltəraşın müxtəlif illərdə sərgilərdə nümayiş etdirilən dəzgah əsərlərini və müxtəlif məzmunlu kompozisiyalarını, həmçinin açıq səma altında ucaldılan monumental əsərlərini yüksək dəyərləndirmiş və dolğunluğunu dönə-dönə vurğulamışlar.

Görkəmli heykəltəraşın sənət yolu və yaradıcılığı bir sıra başqa sahə adamlarının da diqqətini cəlb etmişdir ki, bu da onun əsərlərinin çoxsaylı məqalələrin əsas mövzusuna çevrilməsinə səbəb olmuşdur[1].

Fuad Salayevin erkən gənclik illərində yaratdığı bir çox əsərlər dövrün görkəmli rəssam və heykəltəraşlarının əsərlərinin yer aldığı müxtəlif sərgilərdə nümayiş etdirilmiş və hər bir sərgi öz rəngarəngliyi, fərqliliyi ilə mətbuat səhifələrində işıqlandırılmışdır.

Nadejda Baburinanın “Скульптура малых форм” (Москва, 1982) kitab-albomunda, Ziyadxan Əliyev və Aslan Xəlilovun müəllifliyi ilə Azərbaycan və ingilis dillərində nəşr olunmuş üç hissəli “Azərbaycan incəsənəti” (Bakı. 2011-2012) kitabında heykəltəraşın əsərləri öz əksini tapmışdır. Vüsal Bağırov “Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı. XX əsr” (Bakı.2004) kitabında

---

[1] Георгий Заплетин Исповедь художника, или Взгляды на жизнь, творчество, гражданская позиция скульптора Фуада Салаева. газ. «Панорама» №154, 1998, 2 октября.

tanınmış heykəltəraşın bir necə əsəri haqqında ümumi məlumat verilmişdir. Qeyd etdiyimiz kimi bütün bu yazılanlar ümumi xarakter daşımış və heykəltəraşın yaradıcılığını tam olaraq əhatə edə bilməmişdir. Beləliklə, bu vaxta qədər tanınmış heykəltəraş haqqında yazılanları dəyərləndirməli olsaq, onda nəşr olunmuş qəzet və jurnal məqalələrini geniş və dərin təhlildən uzaq və kifayət qədər lakonik, məlumat xarakterli yazılar hesab etmək olar. Bundan çıxış edərək deyə bilərik ki, Xalq rəssamı, professor, görkəmli heykəltəraş Fuad Salayevin əlli ildən artiq bir dövrü əhatə edən yaradıcılığı bu günədək ətraflı və bütövlüklə araşdırılmamışdır.

Ümumiyyətlə, Fuad Salayevin yaradıcılığı haqqında verilən bu məlumatlar heykəltəraşın bütün yaradıcılığını əhatə etmir. İctimaiyyətə çatdırılan bu məlumatlar əsasən sənətkarın monumental heykəltəraşlığını əhatə edir və çox az miqdarda isə dəzgah heykəltəraşlığına həsr olunur. Bütövlükdə isə bu yazılar sənətkarın dəzgah heykəltəraşlığını, memorial-xatirə əsərlərini, yaratdığı portretləri, barelyeflərini, qorelyefləri və müxtəlif məzmunlu kompozisiyalarını əhatə etmir. Qeyd etməliyik ki, bütün bunlar tanınmış sənətkarın zəngin yaradıcılığının bütün sahələrini hərtərəfli əhatə etmir. Bu səbəbdən də heykəltəraşın yaradıcılığının əhatəli tədqiq və təhlil olunmasının zəruriliyini şərtləndirir və eyni zamanda onun mərhələlərlə hərtərəfli şəkildə öyrənilməsini tələb edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi XX - XXI əsrlər Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Fuad Salayevin yaradıcılığını xronoloji ardıcıllıqla, monoqrafik tərzdə izləmək və şərh etməkdir. Bununla yanaşı, heykəltəraşın əsərlərinin plastika axtarışlarını özündə ehtiva edən üslub dəyişgənliyini və dərin məna-məzmun yükünü aşkarlamaq, onun dəsti-xəttinin, bədii-estetik xüsusiyyətlərinin özünəməxsusluğunu müəyyənləşdirmək və bütün bunları elmi cəhətdən əsaslandırmaqdır.

Tədqiqatın başlıca vəzifələrini aşağıdakı kimi müəyyən etmək olar:

- Heykəltəraş F.Salayevin həyat yolunun xronoloji ardıcıllıqla araşdırılması və yaradıcılığındakı istiqamətlərin müəyyənləşdirilməsi;
- Görkəmli tişə ustasının yaradıcılığının dövrlərə ayrılması və dövrlərə əsasən tədqiqi;

- Xalq rəssamının dəzgah heykəltəraşlığı sahəsində yaratdığı əsərləri öyrənməklə onların ən əhəmiyyətli nümunələrinin təhlil edilməsi;

- Heykəltəraşın portret əsərlərinin bədii-plastik xüsusiyyətlərinin səciyyələndirməsi;

- Fuad Salayevin memorial -xatirə əsərlərinin təhlili və onların bədii-estetik dəyərinin üzə çıxarılması;

- Heykəltəraşın şəhər memarlığını zənginləşdirən monumental heykəllərinin təhlili və fəza-məkanla əlaqəsinin dəyərləndirməsi;

- Xalq rəssamının Azərbaycan heykəltəraşlıq sənətində yerinin müəyyən olunması;

- Fuad Salayevin milli heykəltəraşlıq məktəbinin formalaşmasında rolunun müəyyənləşdirilməsi;

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat işinin nəzəri - metodoloji əsasını heykəltəraşın zəngin yaradıcılığının özünəməxsusluğunu səciyyələndirmək, onun bədii ifadə vasitələrindəki inkişaf xəttini qabartmaq təşkil edir. Bundan əlavə heykəltəraşın daha çox əhəmiyyət kəsb edən əsərlərinin təhlili də tədqiqat işinin nəzəri - metodoloji əsasına daxildir. Tədqiqatda heykəltəraşın bütün janrlara olan müraciətinin əhatəli və elmi şərhlə dəyərləndirilməsi öz əksini tapmışdır. Bu da indiyədək Fuad Salayevin yaradıcılığına sənətşünas münasibətlərində mövcud olan boşluqların yeni elmi şərhlərlə aradan qaldırılmasına səbəb olmuşdur.

Problemin araşdırılması prosesində isə həm xronoloji ardıcıllıqla heykəltəraşın həyat və yaradıcılıq yolu izlənilmiş, həm də onun əsərlərinə xas olan dəyişkən üslub axtarışlarındakı fərqli bədii-estetik və texniki xüsusiyyətlər müqayisəli şəkildə, dəyərləndirilərək şərh olunmuşdur.Tədqiqatda nəzərdən keçirilən problemlərin təhlilində sənətşünaslığın elmi-nəzəri müddəa və qənaətlərindən, müxtəlif ümumbəşəri bədii dəyərlərdən faydalanılmışdır. Qarşıya qoyulmuş problemin araşdırılması prosesində tarixilik prinsipinə və xronoloji ardıcıllığa riayət edilmişdir və əsas amil kimi tarixi - müqayisəli metoddan istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın predmetini Xalq rəssamı, heykəltəraş, Fuad Salayevin həyat və yaradıcılığı, onun əsərlərinin forması, həcmi, zəngin məna-məzmunu, özünəməxsus üslubu və dəst-xətt göstəriciləri təşkil edir.

Tədqiqatın obyektini isə Fuad Salayevin yaratdığı əsərlər və heykəltəraşın şəxsiyyəti haqqında kitablarda, dövrü mətbuatda - qəzetlərdə, jurnallarda dərc olunan məqalələr və yazılar təşkil edir.

**Tədqiqatın sərhədləri.** Tədqiqatda heykəltəraşın yaradıcılığının evolyusiyası xronoloji ardıcıllıqla təsvir olunmuşdur. Araşdırma zamanı Azərbaycan heykəltəraşlığının ümumi inkişafı kontekstində izlənildiyindən burada həm də müasir Azərbaycan heykəltəraşlığının keçdiyi yol qısa şəkildə öz əksini tapmışdır. Bu dövrdə yaşayan sənətkarların gənc heykəltəraşın yaradıcılığına, daimi inkişafına müəyyən təsiri olan məqamlar öz əksini tapmışdır. Tədqiqat Azərbaycan heykəltəraşlıq sənətinin 1960-2015-ci illər dövründəki axtarışlarla dolu inkişaf mərhələsinin araşdırılmasına və onun təbliğinə imkan verir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin özünün qoyuluşu ilə müəyyən olunmuşdur ki, bu da aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- Azərbaycan sənətşünaslığında Fuad Salayevin həyat və yaradıcılığı ilk dəfə olaraq tam və dolğun monoqrafik tədqiqat obyekti kimi təqdim olunmuşdur;
- Fuad Salayevin yaradıcılığı ardıcıl tədqiq olunaraq sistemləşdirilmiş, ayrı-ayrı mərhələlər müəyyən olunmuş və onların təhlilindən sonra nəticə və müddəalar çıxarılmışdır;
- İlk dəfə olaraq sənətkarın dəzgah heykəltəraşlığı, memorial-xatirə əsərləri - monumental yaradıcılığı geniş əhatə olunmaqla təhlil edilmişdir;
- Heykəltəraşın müxtəlif zamanlarda yerinə yetirdiyi portret əsərləri ilk dəfə ətraflı tədqiq edilərək təhlil olunmuşdur;
- Tədqiqat işində heykəltəraşın sovet dövründə bir çox sərgilərdə nümayiş olunmuş kiçik plastika nümunələrinin və ucaldılmış monumental əsərlərinin təhlili də öz əksini tapmışdır;
- Tədqiqatda Fuad Salayevin Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə həsr olunmuş monumental abidələrinin bədii təhlili öz əksini tapmışdır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Bu tədqiqat bütünlükdə heykəltəraşlıq məktəbinin tarixinin genişləndirilməsinə xidmət etməklə, Azərbaycan incəsənətinin ümumi inkişafında Fuad Salayev yaradıcılığının rolunu, yerini və təzahür formalarını müəyyən edir.

Tədqiqat işi rəssamlıq təmayüllü ali və orta ixtisas təhsil müəssisələrində heykəltəraşlıq və sənətşünaslıq üzrə təhsil alan tələbələrə “Heykəltəraşlıq tarixi” və “Azərbaycan incəsənət tarixi” kursları çərçivəsində tədrisində istifadə oluna bilər. Digər tərəfdən dissertasiya Fuad Salayev yaradıcılığı haqqında yazılmış ayrıca elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs üçün dəyərli vəsaitdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda yerinə yetirilmiş və müzakirə olunmuşdur. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 7 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, dörd yarım fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 126 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi, məqsəd və vəzifələri, işin elmi-nəzəri metodoloji əsasları şərh olunur, obyekti və predmeti, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti açıqlanır.

Dissertasiyanın **I fəsli “FUAD SALAYEVIN ERKƏN YARADICILIĞI” adlanır.** Bu fəsil iki yarımfəsilə ayrılmışdır.

Bu fəslin birinci yarımfəsli **“Fuad Salayevin heykəltəraş kimi formalaşması və püxtələşməsi”** adlanır. Birinci yarımfəsildə Azərbaycanda heykəltəraşlıq sənətinin yaranışı, keçdiyi tarixi yol, müasir heykəltəraşlığımızın inkişafı və heykəltəraş Fuad Salayevin erkən yaradıcılıq yolu xronoloji şəkildə izlənilmişdir. Burada onun böyük potensiala malik olan erkən yaradıcılıq yolundan və təhsil aldığı illərdə yaratdığı heykəltəraşlıq nümunələrindən bəhs olunur.

XIX əsrdə, XX əsrin əvvəllərində heykəltəraşlıq nümunələrinə daha çox memarlıq abidələrində rast gəlinir. Lakin Azərbaycanda sovet hakimiyyətinin yarandığı dövrdən etibarən yaradılan əsərin məna–məzmununa diqqət yetirilirdi və sənət əsərləri sovet ideologiyasının tələblərinə uyğun olaraq yaradılırdı. “İnkişafda olan Azərbaycan heykəltəraşlığının həmin dövrün məzmun dairəsi əksər halda tarixi

şəxsiyyətlərin, dövlət və inqilab xadimlərinin obrazları ilə məhdudlaşırdı”[1].

Azərbaycan heykəltəraşlığını araşdırdıqda məlum olur ki, əvvəllərdə mövcud olmuş və sonrakı dövrlərdə, xüsusilə sovet hakimiyyəti illərində heykəltəraşlıq da bu quruluşun “tələbləri” çərçivəsində inkişaf edirdi. Lakin sovetlər birliyi dağıldıqdan sonra Azərbaycanda, eləcə də burada cəmləşmiş digər respublikalarda, yaradılan sənət əsərləri sovet estetikasına, sosialist realizminə və s. ideoloji göstərişlərinə cavab vermirdi. Artıq bu dövrlərdə “sos-art” “tələblərinə” deyil, milli mentalitetə, xalqın estetikasına uyğun sənət əsərləri yaradılırdı.

Azərbaycanda peşəkar heykəltəraşlıq sənəti XX əsrin əvvəllərindən yaranmışdır. Tanınmış simalar Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı kimi sənətkarlar Azərbaycan heykəltəraşlığının ilk nümayəndələridir. XX əsrin 50-60-cı illərində artıq heykəltəraşlıq sahəsində bir sıra peşəkar sənətkarlar çalışırdı.

Fuad Salayev bədii irsinin çox hissəsini dəzgah heykəltəraşlığı nümunələri təşkil edir. Heykəltəraşın muzey və qalereyaları bəzəyən kiçik plastikası müxtəlif janrlarda yaradılaraq, ictimaiyyətə təqdim olunan və ictimaiyyət tərəfindən böyük rəğbət hissi ilə qarşılanan sənət nümunələridir.

Əsərləri ilə diqqəti cəlb edən Fuad Salayevin yaradıcılığı haqqında hələ sovet dövründə bir sıra mütəxəssislər müxtəlif nəşrlərdə öz fikirlərini işıqlandırmış, heykəltəraşın müxtəlif illərdə sərgilərdə nümayiş etdirilən dəzgah əsərlərini və müxtəlif məzmunlu kompozisiyalarını, həmçinin açıq səma altında ucaldılan monumental əsərlərini yüksək dəyərləndirmiş və dolğunluğunu dönə-dönə vurğulamışlar.

Fuad Salayevə yaratdığı bir çox uğurlu heykəltəraşlıq nümunələrinə görə ölkəmizdə və xarıcı ölkələrdə yüksək dövlət mükafatları verilmişdir. O, hələ gənc yaşlarında, sovet dönəmində bir sıra mükafatlar ilə təltif olunmuşdur. Tişə ustası 1975-ci ildə “Azərbaycan Komsomolu” mükafatına, 1976-cı ildə “Zəhmətkeş qadın” və “Analıq” əsərlərinə görə SSRİ Rəssamlıq Akademiyasının diplomuna, 1988-ci ildə “Şair Xətai” heykəli bürünc medala layiq

[1] İbrahimov T. Calal Qaryağdı. Bakı.“Sərvət”. 2013, səh. 104

görülmüşdür. Fuad Salayev yaratdığı qiymətli əsərlərinə görə 1993–cü ildə Tokio şəhərində İtalyan pavilyonunda keçirilən XVII Ümumdünya rəssamlarının sərgisində nümayiş olunan "Son.Cənnət qapısı" adlı əsərinə görə Beynəlxalq diploma layiq görülüb. Sənətkara 1997–ci ildə "Ən yaxşı heykəltəraşlıq işlərinə gorə" Rəssamlar İttifaqının "Sultan Məhəmməd" adına mükafat təqdim olunmuşdur. Yaradıcılıq potensialı olduqca böyük olan heykəltəraş 1992-ci ildə Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi adına, 2002-ci ildə Xalq rəssamı fəxri adına, 2009-cu ildə isə Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilmişdir.

Fuad Salayevin bu illərdə professional sənətkar kimi formalaşmasını onun erkən yaradıcılığına aid əsərləri təsdiq edir. Yarımfəsildə heykəltəraşın 1970-ci illərədək yaratdığı sənət nümunələri təsvir və təhlil olunaraq onların bədii plastik xüsusiyyətləri aşkarlanmışdır.

Ümumiyyətlə, Fuad Salayevin böyük istək və bacarıqla bu sənətə gəlişi onun hər bir məqamda sənətkarlığını, peşəkarlığını inkişaf etdirmək, formalaşdırmaq, püxtələşdirmək istiqamətində çox cəhdli işlər görməsinə, axtarışlarda olmasına, hər bir növbəti əsərinin təkmilləşdirilməsinə gətirib çıxarmışdır. Bu da bütövlükdə gənc heykəltəraşın daima inkişafda olması, uğurlar qazanması ilə nəticələnmişdir. Onun gələcək uğurları növbəti yaradıcılıq əsərlərində, plastika nümunələrində də özünü büruzə verir.

Bu fəslin ikinci yarımfəsli **"Fuad Salayevin 70-80-ci illərdə yeni obraz axtarışları"**adlandırılmışdır. Bu bölmə heykəltəraşın 1970-80-ci illərdə üstünlük verdiyi dəzgah yaradıcılığı nümunələri plastika əsərlərinin başqa nümunələrindən fərqliliyi ilə müəllifin həmin dövr düşüncələrini özündə əks etdirir. Müəllif miqyaslı sərgilərdə nümayiş olunan bu əsərlərində öz duyğularını ümumiləşdirilmiş formada şərh etmiş, sənətsevərləri ilə bölüşmüşdür.

70–ci illərdə sovetlər birliyində kiçik formalı heykəllərin yaradılmasına daha çox üstünlük verilmişdir. Müasir incəsənət növü olan kiçik formalı heykəllərin geniş yayılması isə müxtəlif səbəblərdən irəli gəlirdi: kiçik həcmli işin yapılmasının qısa vaxt ərzində başa çatması, materialın az istifadə olunması və s. Bunun da nəticəsində bir böyük ölçülü deyil, bir neçə kiçik formalı heykəltəraşlıq nümunəsi işlənilirdi. Məlum olduğu kimi böyük ölçülü işlərdən fərqli olaraq kiçik ölçülü plastika nümunələrinin işlənməsində də müəyyən çətinliklər

mövcuddur. Belə işlərdə ideyanın, fikrin dolğun ifadəsi üçün yüksək peşəkarlıq tələb olunur.

Fuad Salayevin yaradıcılığındakı "Ana və uşaq", "Analıq", "Kolxozçu qadın", "Çılpaq qadın","Gənc rəssamin portreti", "Qarabağlı Məmməd", "Akademik Həsən Əliyev", "Cahangir", və s. qadın, kişi obrazları, portretləri hər biri özünəməxsusluğu, obraz ifadəliliyi ilə daima diqqəti cəlb edir. Hər bir obrazda formanın, plastikanın, fakturanın bacarıqlı həlli əsərlərin xarakterik xüsusiyyətlərinin önə çəkilməsi, dolğun ifadəsi ilə nəticələnmişdir.

Heykəltəraşlığın müxtəlif janrlarını hələ gənc yaşlarından yüksək peşəkarlıqla mənimsəmiş sənətkarın yaradıcılığında dəzgah heykəltəraşlığı daha əhəmiyyətli yer tutur. Onun yaradıcılığındakı əsərləri yığcam və lokonik obrazlar yaratmaq bacarığını nümayiş etdirməklə yanaşı, sənətkarın daxili aləmini, obrazın məna-məzmununu tam ifadə edir. Heykəltəraşın yaradıcılığında milli və yeni keyfiyyətlər bəxş edən, eyni zamanda, çoxəsrlik tariximizi özünəməxsus bədii məziyyətlərlə zənginləşdirən kifayət qədər heykəltəraşlıq əsərləri vardır. Heykəltəraş bu əsərlərində başlıca olaraq özünü ifadə edir desək daha doğru olar. Müəllif belə əsərlərdə mənəvi təmizlik, ülvilik, əbədi və bəşəri dəyərlər, fəlsəfi düşündürücü plastika şəklində özünü əks etdirir.

Heykəltəraşın obrazın daxili, mənəvi aləminə nüfuzetmə bacarığı, ölçü hissiyatı və s. bu kimi xüsusiyyətləri sənətkarın fərqləndirici cəhətlərindən biri kimi dəyərləndirilmişdir. Tələbəlik illərindən professional vərdişlərə yiyələnmək, onları sənətkarlıqla tətbiq etmək, yeni mövzuların, obrazların tapılması, formanın plastik bədii həlli Fuad Salayevin müəllif dünyagörüşünün, axtarışlarının ifadəsidir.

Fuad Salayevin 1990-2014-cü illərdə və bu illərə qədər olan dövrdəki heykəltəraşlıq nümunələrini nəzərdən keçirdikdə onun daima yeni-yeni mövzularının, inkişaf edən, hər bir növbəti əsərində yeni plastik xüsusiyyət zənginliyini yaradan sənətkar olması özünü təsdiqləyir. Hər bir sənətkarın öz dəsti xətti, düşüncə tərzi onun əsərlərində də özünü büruzə verir və Fuad Salayev də heykəltəraşlıq sahəsində özünəməxsus xüsusiyyətləri ilə seçilən heykəltəraşdır.

Fuad Salayevin hər bir işinin respublika və xarici sərgilərdə uğur qazanması sənətkarın heykəltəraşlıq məkanında özünəməxsus dəsti-xəttə malik olmasının, yaradıcı bir sənətkarın, yeni və fərqli

əsərlər müəllifinin mövcudluğunun geniş miqyasda, həm ölkə daxilində, həm də olkə xaricində təsdiqidir.

Heykəltəraşın yaradıcılığının əsasını onun sənətkarlığının püxtələşməsi dövrü hesab etmək olar. Müxtəlif bacarıqların - sənətkarlığın, təşkilatçılığın, idarəetmənin və s. cəmləşdiyi bu dövr onu kamil sənətkarlığa aparan yol idi.

Tədqiqatın **II fəsli "FUAD SALAYEV YARADICILIĞININ USTADLIQ MƏRHƏLƏSİ"**nə həsr olunub. Bu fəslin birinci yarımfəsli **"Fuad Salayevin 1990-2014-cü illər yaradıcılığında yeni plastik xüsusiyyətlərin əldə olunması"** adlanır. Heykəltəraşın 1990-2014-cü illərə qədər olan dövrdəki heykəltəraşlıq nümunələrini nəzərdən keçirdikdə onun daima yeni mövzularla inkişaf edən, hər bir növbəti əsəri ilə plastika zənginliyini yaradan sənətkar olması özünü təsdiqləyir.

Daima inkişaf etməyə çalışan, yeni obraz axtarışlarında olan heykəltəraşın 1990-cı illərdən sonrakı dövrü əhatə edən yaradıcılığında, demək olar ki, əsaslı dəyişikliklər, yeniliklər baş verir. Belə ki, əvvəlki illərdə mövcud olan yaradıcılığından fərqli olaraq bu dövrdə o yaratdığı obrazları naturallıqdan çıxardaraq, onları daha çox bədii deformasiya olunmuş, nazikləşdirilmiş vəziyyətdə təsvir etməyə başlayır. Fuad Salayev topladığı biliklərdən, əldə etdiyi təcrübədən lazımınca bəhrələnən, həm də bu sahədə özünəməxsus xüsusiyyətləri ilə seçilən sənətkardır ki, bu da heykəltəraşın obrazlarında daha çox ideyanın önə çəkilməsi kimi qiymətləndirilə bilər.

Heykəltəraşın "Antiteza", "Aktyor", "Seyr edən" və s. əsərlərini yeni yaradıcılıq xüsusiyyətlərini əks etdirən sənət nümunələrinə misal göstərmək olar. Özünəməxsus xüsusiyyətləri ilə seçilən bu dəyişikliklər heykəltəraşın obrazlarında daha çox ideyanın önə çəkilməsi kimi qiymətləndirlə bilər.

Fuad Salayev bu illərdə əsasən dini-fəlsəfi və müxtəlif biliklərin ifadəsi olaraq bir neçə ideyanın cəmləşdirildiyi qlobal mövzulara müraciət etmişdir. Cəmiyyətdə baş verən hadisələr, heykəltəraşın fikirləri, ideyaları və daxilində baş qaldıran "çaxnaşma" "Kələfin ucunu axtaranlar", "Meditasiya", "Apokalipsis", "Qıl körpüsü", "Son.Cənnət qapısı"obrazları vasitəsi ilə əks olunmuşdur.

Nümunə olaraq "Mütəfəkkir", "Yüksəliş" əsərini qeyd etmək olar. "Mütəfəkkir" obrazı kürsüdə sağ qoluna dayaqlanaraq yarıuzanmış vəziyyətdə yaradılmışdır. Sol əli ilə sinəsi bərabərində

mantiyasını tutan mütəfəkkirin düşüncəli obrazında bir yorğunluq, dalğınlıq da öz əksini tapmışdır.

Heykəltəraşın “Mütəfəkkir” əsərinə baxdıqda düşünən insan təsviri avtobioqrafik xarakter kəsb edir və əslində sənətkarın düşüncələrindən xəbər verir. Sənətkarı əhatə edən dünya və sosial hadisələr düşünmək üçün kifayət qədər əsas verirdi.

Adətən sərt materialla işləyən peşəkarın yaradıcı təxəyyülü, sənət üslubu iş prosesində də bir sıra yeniliklərin, əlavələrin olması ilə daha da dolğun kompozisiyanın yaranması ilə nəticələnir. Heç şübhəsiz ki, bu da heykəltəraşın peşəkarlığından irəli gəlir.

Heykəltəraşın “Yüksəliş” əsəri üfüqi lövhə üzərində qurulmuşdur. Heykəldə eyni formalar qeyri-ardıcıl prinsiplə yığılaraq nərdivan obrazını yaradır. Heykəl yarıüfüqi vəziyyətdə söykənmiş və üzünü göylərə tutmuş istənilən məqama yetişmiş insan obrazı ilə tamamlanmışdır. Buradakı obraz ümumi görünüşü ilə daha çox din xadimlərini yada salır.

Heykəlin ümumi kompozisiyası - konstruksiyası, formalar, bədii plastik xüsusiyyətləri hər bir detalı ilə başlanğıcdan sona qədər sanki, insanın yaranışından yüksəliş anına qədər olan dövrünü əhatə edir. Heykəlin kompozisiyasından, müxtəlif ifadə vasitələrindən göründüyü kimi keçilən bu yol yetərincə çətinliklərə malikdir. Bu kompozisiya bütövlükdə daima yüksəlmək, ilahi varlğa yaxın olmaq məqsədi ilə çalışan din xadimi obrazının minbərin sonunda olması onun, artıq ilahi bir istəyə nail olmasını ifadə edir.

Bütövlükdə, əsərin əsasını təşkil edən yüksəlmə ideyası həm konstruktiv quruluşda, həm də əsərin kulminasiyasını təşkil edən insan fiqurunda böyük peşəkarlıqla sənətsevərlərə çatdırılıb. Heykəltəraş bu əsərində də dinamikanın mənbəyi olan ideyanın oxunaqlı bədii ifadə vasitələri ilə önə çəkilməsinə tam nail olmuşdur.

Fuad Salayev bu illərdə əsasən dini - fəlsəfi və müxtəlif biliklərin ifadəsi olaraq bir neçə ideyanın cəmləşdirildiyi qlobal mövzulara müraciət etmişdir. Onun bu dövrdəki az saylı portret yaradıcılığını nəzərə almasaq, demək olar ki, əsərləri belə mövzularla təqdim olunur. Cəmiyyətdə baş verən hadisələr heykəltəraşın fikirləri, ideyaları, daxilində baş qaldıran “çaxnaşma” obrazları vasitəsi ilə ifadə olunur.

Bu dövrdə də dəsti-xətti, düşüncə tərzi ilə seçilən Fuad Salayev heykəltəraşlıq sahəsində öz yüksək sənətkarlıq səviyyəsini təsdiq edir.

Fəslin ikinci yarımfəslində **"Fuad Salayev yaradıcılığında monumental abidə anlayışına yeni yanaşma"** prinsipləri tədqiq olunmuşdur.

Heykəltəraş monumental abidəyə yeni prinsiplərlə yanaşmış və bununla da tamaşaçıda bu cür əsərlərə xüsusi maraq, diqqət yaratmağa nail olmuşdur. O, yaratdığı obrazların təcəssümünü xırda detallara üstünlük vermədən, ümumiləşdirilmiş plastik obrazlarla həll etmişdir.

Sənətkarın yaratdığı büst–abidələrin plastik quruluşu, frontallığı, həcmlərin qapalığı bu abidələrin monumental görkəmini artırır. Məhz belə xüsusiyyətlərin önə çəkilməsi bu abidələrin zənginliyini, dolğunluğunu artırmaqla yanaşı onlara daha aydın monumental görkəm verir.

Fuad Salayevin yaratdığı "Səyyah", "Aqil Əliyev", "Azad Mirzəcanzadə", "Adəm və Həvva", "Aktyor" , "Qalib" və s. bu kimi obrazlar bədii duyumunun, bədii təfəkkürünün əvəzsiz məhsuludur. Fuad Salayevin şəhərimizin müxtəlif məkanlarında yerləşdirilmiş əsərləri ətraf mühitlə estetik vəhdətə nail ola bilmişdir. Heykəltəraşın belə əsərlərindən ikisi hazırda Neftçilər prospekti 123-də nümayiş olunur. Muzey Mərkəzi binasının qarşısında ucaldılan bu heykəllərdən biri "Səyyah", digəri isə "Qalib" adlanır. Binanın sağ tərəfində qoyulan "Səyyah" adlı heykəltəraşlıq nümunəsi 2005-ci ildən etibarən bu məkanın bədii-estetik mühitini zənginləşdirir. Hündür qranit postament üstündə qoyulmuş heykəl üfüqi lövhə üzərində qurulmuşdur. Hündürlüyü dörd metr olan tuncdan hazırlanmış heykəl açıq-türüncü rəngdədir. Bu heykəltəraşlıq əsərində səyahətə çıxmış atlı obrazı yaradılmışdır. Əsərdə taqətsiz insan fiquru (silueti) uzun yol qət etmiş, yorulmuş səyyah obrazını əks etdirir. Burada kişnəyən at obrazının yaradılması isə səyyahın artıq lazımı məkana, mənzilbaşına gəlib çatmasına işarə edir.

Yorğunluqdan müvazinətini itirmək üzrə olan səyyah və daha getmək üçün gücü qalmayan, həddən artıq yorulmuş at obrazları güclü təsiredici bədii ifadə vasitələrinə malikdir. Qeyd etməliyik ki, peşəkarlıqla yaradılmış bu fiqurlardan (abidə) yan keçmək və onun tamaşaçısının bu kimi hissləri yaşamaması mümkün deyil. Bütövlükdə əsərin ideyası, məna-məzmunu oxunaqlı, aydın formalarla təsvir olunmuşdur ki, bu da əsərin ifadəliliyini artırır.

Müəllifin heykəltəraşlığın ümumi cəhətlərini özündə əks etdirən "Qalib" abidəsinin yanından da laqeyd keçmək mümkün deyil.

Qətiyyətlə hərəkətdə olan atın üstündəki məğrur fiqur qələbə çalmış, düşməni məğlub etmiş insan obrazını əks etdirir. Fiqur sol əlindəki qalxanı yuxarı qaldırmış, sağ əli ilə atın yüyənindən tutmuşdur. Bütövlükdə qələbəni əks etdirən bu monumental abidə tamaşaçıda uğur, qələbə və sevinc hissini yaradır.

Açıq səma altinda nümayiş olunan hər bir heykəltəraşlıq əsəri ilə onu əhatə edən memarlıq və ətraf mühit (landşaft) bir-biri ilə harmonik əlaqəli olmalıdır. Əgər bu mütləq bağlılıq olmasa burada qoyulan heykəl öz ifadəliliyini itirər. Bu baxımdan heykəltəraşın yaratdığı bu əsərlər yerinə, məkanına, mühitinə görə biri-biri ilə bağlıdır.

Fuad Salayevin şəhər memarlığında qoyulan heykəllərinə əsasən onun monumental heykəltəraşlığını son dövrdəki yaradıcılığının məhsuldar sahəsi kimi qiymətləndirmək olar. Onun son illərdə biri - birinin ardınca memarlığımıza yol açan əsərləri şəhərimizin bədii-estetik gözəlliyini artırmaqla yanaşı, heykəltəraşın yaradıcılığı haqqında da ətraflı məlumat daşıyıcılığına malikdir desək yanılmarıq. Çünki, yaradılan və şəhər mühitində qoyulan hər bir heykəl heykəltəraşın ideyaları, plastik dili, bədii ifadə vasitələri, bir sənətkar kimi onun özü və s. haqqında informasiyalar verir.

Tələbəlik illərində heykəltəraşlıq nümunələri ilə sərgi salonlarını zənginləşdirən, tamaşaçıların gözünü, könlünü oxşayan gənc heykəltəraş məhz püxtələşdiyi dövrdə Sergey Yeseninin xatirəsinə həsr olunmuş memorial abidəni hazırlamışdır.

Monumental heykəltəraşlıq sahəsində öz sənətkar töhfəsini verən heykəltəraş elm, incəsənət və başqa sahələrdə çalışan mütəxəssislərin, alimlərin digər tanınmış simaların barelyeflərini də yaratmışdır. Tanınmış şəxsiyyətlərdən görkəmli ictimai xadim, akademik Yusif Məmmədəliyevin; məşhur bəstəkar Qara Qarayevin; xalq artisti, tarzən Hacı Xanməmmədovun; kəşfiyyatçı, milli qəhrəman Riad Əhmədovun və s. tanınmış simaların memorial xatirə abidələri Fuad Salayevin heykəltəraşlıq abidələridir. Buna misal olaraq Yusif Məmmədəliyevin abidəsini qeyd edə bilərik. Heykəl dörd tərəfdən qranit çərçivələrlə əhatələnmiş, kiçik postamentin üstünə qoyulan tunc materialından hazırlanmış büst portretdən ibarətdir. Üç tərəfdən - fasad və yanlardan aydın görünüşə malik heykəl incə plastika ilə yapılmışdır. Kompozisiyanın mərkəzində ön planda yerləşdirilmiş büst portretin fonunu təşkil edən iç-içə yerləşdirilmiş qranit çərçivələr perspektivada dərinlik illüziyasını yaradır. Portretin ümumi görünüşü və buradakı

dərinlik illüziyası akademikin həyatını, tədqiqatlarını əks etdirən informativ xüsusiyyətə malikdir. Onun siması, uzaqlara dikilən baxışları isə daha çox akademikin intellektini, müdrüklüyünü və digər bu kimi xüsusiyyətlərini ifadə edir. Heykəltəraş bütün bu cəhdləri ilə ictimaiyyətə akademik haqqında kamil məlumat verməyə səy göstərir desək yanılmarıq.

Heykəltəraş mövzu və obraz müxtəlifliyi ilə seçilən çoxsaylı uğurlu əsərlərin müəllifidir. Onun yaradıcılığını digərlərindən fərqləndirən əsas amil heykəltəraşın düşüncələri, daxili aləmi və əsər yaradılarkən onların tamaşaçıya yığcam və qabarıq şəkildə çatdırılmasıdır.

Böyük bədii potensiala malik olan Fuad Salayevin əsərləri həmişə material və forma hissiyatı, gözəl plastikası, kompozisiya təfəkkürünün müxtəlifliyi ilə diqqəti cəlb edir. Heykəltəraşın əsərləri onun yaradıcılığında olan mütəmadi axtarışlarını və tapıntılarını, xüsusi dəsti-xəttini açıq-aşkar nümayiş etdirir. Müəllif yaradıcılığının hər bir dövründə zamanın tələblərinə cavab verən, mövzu aktuallığı ilə seçilən kompozisiyalar yaratmışdır.

Onu da qeyd etməliyik ki, Fuad müəllim ona ünvanlanan – "Sənətdə öz sözünüzü deyə bilmisinizmi?"– sualına da əsl tişə ustası, əsl sənətkar kimi cavab verir:

- "Bu haqda qoy sənətşünaslar desinlər. Mən tam yaradıcılıqla məşğulam və yaratdığım hər bir əsərə həyat vermək istəyirəm"[1].

Hazırda tanınmış, ünlü heykəltəraş Fuad Salayev SSRİ xalq artisti, çoxsaylı mükafatlar laureatı Rəşid Behbudovun xatirə abidəsi üzərində işləyir. Müğənninin ucaldılacaq heykəli şəhərimizin estetik gözəlliyini bir qədər də artıracaq.

Yaradıcılığını və əsərlərini sənətşünaslıq nöqteyi-nəzərindən araşdırdığımız Xalq rəssamı, professor, ən başlıcası professional heykəltəraş Fuad Salayev sənətdə öz sözünü demiş və bütün sənətsevərlər, tamaşaçılar tərəfindən həmişə sevilən, ehtiyac duyulan sənətkarlarımızdandır.

**Dissertasiyanın Nəticə hissəsində** hər bir fəsil və yarımfəsil üçün ayrı-ayrılıqda müddəa və qənaətlər nəticə şəklində təsbit olunmuşlar.

---

[1] Məcidqızı G. İncəsənət millətin güzgüsüdür. "Mədəniyyət" qəz., 2004, 6 mart.

Bütövlükdə Xalq Rəssamı, filosof-heykəltəraş Fuad Salayevin çoxşaxəli yaradılcılığının təhlili aşağıdakı qənaətlərə gəlmək imkanı vermişdir:

-Fuad Salayevin yaradıcılığında heykəltəraşlığımızın bütün sahələri öz əksini tapmışdır;

-Fuad Salayev yaradıcılığı erkən dövrdən ölkəmizin heykəltəraşlıq sənətini layiqincə təmsil etmişdir;

-Xalq Rəssamının dəzgah heykəltəraşlığı nümunələrində plastik forma ilə bərabər, məzmunu ifadə edən mənəvi, dini-fəlsəfi keyfiyyətlər özünü açıq-aydın büruzə verir;

-Heykəltaraşın yaratdığı portret əsərləri öz orijinallığı, obrazlılığı və ifadəliliyi ilə daima seçilir;

-Fuad Salayevin qadın obrazları müxtəlifliyi, portret xüsusiyyətləri, plastikası və oxunaqlılığı ilə səciyyələnir;

- Heykəltəraş memorial-xatirə əsərlərinin bədii həllində mənəvi, psixoloji zənginliyə, obrazın düşündürücü bitkinliyinə müvəffəq olmuşdur;

- Xalq Rəssamının yaratdığı monumental heykəllər formasına, həcm-məkan vahidliyinə, ideya aydınlığına malikdirlər;

- Heykəltəraşın müxtəlif mövzularda yaratdığı heykəllərdə bədii ənənəyə yaradıcılıqla yanaşması və plastik forma orijinallığına üstünlük verməsi müəllifin dəst-xətt özünəməxsusluğunu təşkil edir;

- Fuad Salayevin zəngin bədii irsə malik yaradıcılığı müasir Azərbaycan heykəltaraşlığı tarixinin ayrılmaz hissəsinə çevrilmişdir

**Dissertasiya mövzusuna dair müəllifin dərc etdiyi məqalələr:**

1. Heykəltəraş Fuad Salayevin yaradıcılığı // Elmi Axtarışlar. Toplu. XXVII. Bakı “Səda”, 2006, səh.193-196.

2. Fuad Salayevin yaradıcılığında müasirlərin obrazları // "Mədəniyyət dünyası". №31, 2016, səh.170-174

3. Heykəltəraşın obraz axtarışları bədii plastik ifadələrdə // "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri". №31, 2016, səh.159-163

4. Fuad Salayevin erkən yaradıcılığında qadın obrazları //.“Təsviri və Dekorativ-tətbiqi sənət məsələləri” Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Xalçası Muzeyi №4(18), 2015, səh. 18-24

5. “Fuad Salayevin şedevrləri...” // Qobustan №1. Sənət toplusu. Bakı, 2016 səh. 48-50.

6. «Филосовские образы в творчестве Фуада Салаева». Literature and art of the new century the transformation process and the continuity of traditions. Vedecko vydavatelske centrum “Sociosfera-CZ”.Belgorad State University. Belarusian State Akademy of Music. Materials of the international scientific conference. Prague. January 20-21, 2016. стр.5-8

7. «Монументальные памятники Фуада Салаева и городская среда» // “San"at”.Журнал Академии Художеств Узбекистана. №4,2016 (çapdadır)

**Емин Акиф оглы Алекперов**

## Творчество скульптора Фуада Салаева


## РЕЗЮМЕ

В диссертации исследуется творчество Народного художника Азербайджана, скульптора Фуада Салаева. Обзор особенностей развития монументальной и мемориальной скульптуры, а также камерной пластики сопровождается анализом художественно-пластических особенностей авторских работ.

**I Глава «Раннее творчество Фуада Салаева»** посвящена становлению мастерства и ранним работам Салаева. Глава состоит из двух разделов, в которых на фактических примерах проводится художественный анализ раннего творчества скульптора.

В первом разделе главы «Формирование и становление скульптора Фуада Салаева» дается обзор студенческим годам и ранним работам скульптора.

Во втором разделе главы «Поиски образности в творчестве Фуада Салаева 70-80-х годов» исследуются композиционные особенности и поиски новых средств выразительности в пластике скульптора.

**II Глава** называется **«Этап становления мастерства в творчестве Фуада Салаева»**. В первом разделе главы «Обретение новых пластических особенностей в творчестве 1990–2014 годов» обосновывается идея о новой пластической выразительности в эти годы. Во втором разделе главы «Новый подход к понятию монументальной скульптуры в творчестве Фуада Салаева». нашли отражение монументальные работы скульптора. Памятники скульптора, установленние в Баку, характеризуются ясной силуэтной и монументальной формой.

В **Заключении** подводятся итоги исследования по каждой главе и ко-всей диссертации вцелом.

**Emin Akif Alakbarov**

# Creativity of sculptor Fuad Salayev

## SUMMARY

In the Thesis works creativity of the National artist of Azerbaijan, the sculptor Fuad Salayev are investigated. The review of features of development of a monumental and memorial sculpture, and also chamber plasticity is followed by the analysis of art and plastic features of author's plasticity.

The **Chapter I** is called "Early works of Fuad Salayev" and is devoted to formation of skill and early works of the sculptor. Chapter consists of two sections in which on the actual examples the art analysis of early works of the sculptor is carried out.

The first section of the chapter called "The formation and establishment of the sculptor Fuad Salayev". The section provides an overview of the student's age and the early works of the sculptor.

The second section of the chapter called "The search for imagery in the works of Fuad Salayev 70-80s." This section examines the compositional features and the search for new means of expression in the plastic sculptor.

The **II Chapter** is called "A stage of formation of skill in Fuad Salayev's creativity" the First section of this chapter finding of new plastic features in creativity of 1990-2014 is called ". The idea about new plastic expressiveness these years is proved in the section. The second section of the head is called "New approach to a concept of a monumental sculpture of Fuad Salayev's creativity". Monumental works of the sculptor have found reflection in the section. Monuments of the sculptor establishment in Baku are characterized by a clear silhouette and monumental form.

The Conclusion summarizes the research on each chapter and to whole thesis as a whole.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**Емин Акиф оглы Алекперов**

# ТВОРЧЕСТВО СКУЛЬПТОРА ФУАДА САЛАЕВА

Специальность: 6215.01 – Изобразительное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии в области искусствоведения

**БАКУ - 2016**